## AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ

### ƏMR

**20 sentyabr 2024-cü il** **3-28/3-1-508/2024**

**"2024-2025-ci ilin payız-qış mövsümündə respublikada qrip və kəskin respirator xəstəliklərə qarşı profilaktik tədbirlərin gücləndirilməsi barədə"**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 8.14-cü və 14.5-ci bəndlərini rəhbər tutaraq, Ümumdünya Səhiyyə Təşkilatının "Qriplə mübarizəyə dair Qlobal Strategiya 2019-2030" sənədinə uyğun olaraq 2024-2025-ci ilin payız-qış mövsümünün başlanması ilə əlaqədar əhali arasında qrip və kəskin respirator virus infeksiyalarına qarşı profilaktik və əksepidemik tədbirlərin, həmçinin infeksiya üzərində epidemioloji monitorinqin gücləndirilməsi məqsədilə

**əmr edirəm:**

1. Təşkilatı-hüquqi formasından asılı olmayaraq respublikanın bütün tibb idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın:

1.1. ağır kəskin respirator xəstəlik halları qeyd edildikdə, onlar barədə məlumat dərhal ərazi gigiyena və epidemiologiya mərkəzlərinə verilsin və qripə şübhəli xəstələrdən götürülmüş nümunələr Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzinə çatdırılsın;

1.2. ağırlaşmış kəskin respirator xəstələrin, xüsusən uşaqların və yaşlı əhalinin hospitalizasiyası üçün xüsusi palataların ayrılması təmin edilsin;

1.3. qrip və kəskin respirator virus infeksiyalarının yayılmasının qarşısının alınması məqsədi ilə ümumtəhsil və məktəbəqədər uşaq müəssisələrində tibbi müşahidələrin aparılması təşkil edilsin;

1.4. zəruri hallarda tibb müəssisələrində məhdudlaşdırıcı rejimin tətbiq edilməsi, tibb personalının fərdi qoruyucu vasitələrdən istifadə etməsi təmin edilsin;

1.5. profilaktik dezinfeksiya işləri gücləndirilsin;

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
İmzalayan şəxs: Teymur Musayev / Rəhbərlik / Nazir

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur

**Sənədin elektron yüklənmə unvanı:**
https://verify.esd.asan.gov.az/info/esign/19ve0zCtXU5lHGpZWCI7nJshrknJCp8Rx8SYh0mE2ZM%3D

1.6. əhali arasında qrip və kəskin respirator virus xəstəliklərinin profilaktikası barədə media subyektlərindən geniş istifadə etməklə sanitariya-maarifi işləri aparılsın.

2. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 02.10.2023-cü il tarixli 3-28/3-1-631/2023 nömrəli əmri ilə təsdiq edilmiş siyahı üzrə tibb müəssisələrinin rəhbərlərinə tapşırılsın ki, Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə uyğun olaraq insanlar arasında qrip xəstəliyi üzərində kəşfiyyat xarakterli epidemioloji nəzarət davam etdirilsin və ümumiləşdirilmiş həftəlik məlumatların Respublika Gigiyena və Epidemiologiya Mərkəzinə göndərilməsi təmin edilsin.

3. Respublikanın şəhər və rayon gigiyena və epidemiologiya mərkəzlərinin direktorlarına tapşırılsın ki, ümumtəhsil və məktəbəqədər uşaq müəssisələrində, tibb müəssisələrində, habelə cari ilin noyabr ayında BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda təşkil olunması ilə əlaqədar Bakı şəhərində tədbirlərin keçiriləcəyi obyektlərdə, iştirakçıların və qonaqların yaşayış yerlərində sanitariya-gigiyena norma və qaydalarına, dezinfeksiya rejiminə ciddi riayət edilməsinə nəzarət gücləndirilsin.

4. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin Baş direktoru S.Həsənovaya və Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzinin Baş direktoru N.Xəlilova tapşırılsın:

4.1. respublikanın şəhər və rayonlarında qrip və kəskin respirator xəstəliklərə qarşı profilaktik və əksepidemik tədbirlərin aparılmasına metodik köməkliyin göstərilməsi təmin edilsin;

4.2. qrip və kəskin respirator infeksiyalar və bununla bağlı aparılmış laborator müayinələrin nəticələri barədə məlumatlar həftəlik əsaslarla Səhiyyə Nazirliyinə təqdim edilsin.

5. İctimai Səhiyyə və İslahatlar Mərkəzinin Baş direktoru Q.Haqverdiyevə tapşırılsın ki, əhali üçün mövsümi qrip barədə maarifləndirici materialların nəşri təşkil edilsin.

6. Media və kommunikasiya şöbəsinin müdiri P.Abubəkirova tapşırılsın ki, qrip və kəskin respirator xəstəliklər barədə müvafiq məlumatların media subyektlərində yayılması təmin edilsin.

7. İctimai səhiyyə və xəstəliklərə nəzarət şöbəsinin müdiri N.Mürsəlovaya tapşırılsın ki, bu Əmrdən irəli gələn məsələlərin həlli təmin edilsin.

8. Əmrin icrasına nəzarət nazir müavini Nadir Zeynalova həvalə edilsin.

**Nazir** Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Elektron sənədin surəti **Teymur Musayev**

Elektron Sənəd Dovriyyəsi Sistemi
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
İmzalayan şəxs: Teymur Musayev / Rəhbərlik / Nazir

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.esd.asan.gov.az/info/esign/19ve0zCtXU5lHGpZWCI7nJshrknJCp8Rx8SYh0mE2ZM%3D